

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 252 (21.404)

*23 dekabr 2015-ci il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Dekabrın 22-də Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin rəsmi qarşılanma mərasimi olub.

Rəsmi qarşılanma mərasimi başa çatdıqdan sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə təkbətək görüşü olub.

Həmin gün Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani ilə geniş tərkibdə görüşü keçirilib.

Geniş tərkibdə görüş başa çatdıqdan sonra Prezident İlham Əliyevin və Prezident Məhəmməd Əşrəf Qaninin iştirakı ilə Azərbaycan-Əfqanıstan sənədlərinin imzalanması mərasimi olub.

Dekabrın 22-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin adından Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaninin şərəfinə rəsmi nahar verilib.



## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyası keçirilmişdir





Dekabrın 22-də beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyası keçirilmişdir.

Sessiyanın müzakirəsinə aşağıdakı məsələlər verilmişdir:

1. 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları
2. Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin təsdiq edilməsi
3. Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2016-cı il büdcəsinin təsdiq edilməsi
4. Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) hesabatı
5. Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının üzvlərinin seçilməsi

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 2015-ci ildə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafının yekunları ilə əlaqədar məruzə etmişdir. **(Ali Məclis Sədrinin məruzəsi qəzetin bugünkü nömrəsində dərc olunur)**

Məruzədən sonra Naxçıvan Muxtar Respublikasının kənd təsərrüfatı naziri Elşad Əliyev və Naxçıvan Muxtar Respublikası Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsinin sədri Əsgər Əsgərov çıxış etmişlər.

"Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin təsdiq edilməsi" və "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2016-cı il büdcəsinin təsdiq edilməsi" barədə məsələlərin müzakirəsi ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının maliyyə naziri Xalid İsgəndərov və Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun sədri Rasim Hüseynov çıxış etmişlər.

Sessiyada "Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsi" və "Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2016-cı il büdcəsi" təsdiq olunmuşdur.

Sonra gündəlikdə duran dördüncü məsələ ilə bağlı Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramovanın hesabatı dinlənilmişdir.

"Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 22-ci maddəsinə müvafiq olaraq sessiyada Naxçıvan Muxtar Respublikası Ali Vəzifəli Şəxsinin Mərkəzi Seçki Komissiyasının üzvləri haqqında təklifinə baxılaraq təsdiq olunmuşdur.

Ali Məclisin Sədri sessiyaya yekun vuraraq 2015-ci ildə muxtar respublikanın inkişafında, sabitliyin və sərhədlərin qorunmasında əməyi olanların hamısına təşəkkürünü bildirmiş, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Naxçıvan Muxtar Respublikası ərazisindəki ordu, birləşmə və hissələrinin şəxsi heyətlərini və onların ailələrini, şəhid ailələrini və müharibə veteranlarını, sessiya iştirakçılarını, muxtar respublika əhalisini qarşıdan gələn əlamətdar bayramlar – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibəti ilə təbrik etmişdir.

Bununla da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci çağırış ikinci sessiyası öz işini başa çatdırmışdır.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ikinci sessiyasında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun

## M Ə R U Z Ə S İ

Hörmətli deputatlar və sessiya iştirakçıları!

Başa çatmaqda olan 2015-ci il istər ictimai-siyasi, istərsə də sosial-iqtisadi sahədə qazanılmış bir sıra nailiyyətlərlə yaddaşlara həkk olunmuşdur. Cari il noyabrın 1-də Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər keçirilmişdir. Bu seçkilərdə də ümummilli lider Heydər Əliyev yoluna sədaqət nümayiş etdirilmiş, ulu öndər tərəfindən əsası qoyulmuş davamlı inkişaf və tərəqqi siyasətinə səs verilmişdir.

Bu siyasətin ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, ölkəmizdə bütün sahələr üzrə sabit və dinamik inkişaf qorunub saxlanılır. Uzun müddətdən bəri blokada şəraitində yaşamasına baxmayaraq, Naxçıvan Muxtar Respublikası da ölkə başçısının bu qədim diyara göstərdiyi diqqət və qayğı sayəsində daim inkişaf edir.

Cari il dekabrın 1-də ölkə Prezidenti cənab İlham Əliyevin muxtar respublikamıza növbəti səfəri Naxçıvanın tarixinə daha bir əlamətdar və yaddaqalan gün kimi yazıldı. Dövlət başçısı səfər çərçivəsində Naxçıvan Beynəlxalq Hava Limanında aparılan yenidənqurma işləri ilə tanış olmuş, Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Günəş Elektrik Stansiyasının, Sənaye Kompleksinin, Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkəsinin, Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun, Nehrəm kənd 2 saylı tam orta və Naxçıvan şəhər 2 saylı uşaq musiqi məktəblərinin açılışında iştirak etmişdir.

Cari ildə də muxtar respublikada qarşıya qoyulmuş başlıca vəzifələr maliyyə vəsaitlərindən səmərəli istifadə etməklə əhalinin sosial-rifah halının yaxşılaşdırılması, abadlıq-quruculuq işlərinin daha keyfiyyətlə aparılması, təhsil, səhiyyə müəssisələrinə diqqətin artırılması, xidmət və infrastruktur sahələrində işin müasir dövrün tələblərinə uyğun qurulmasından ibarət olmuşdur.

Əldə olunmuş nəticələr, müəyyən edilmiş hədəflərə nail olmağımız muxtar respublikamızda dinamik inkişaf səviyyəsinin saxlandığını bir daha sübut edir. Belə ki, iqtisadi inkişafı xarakterizə edən əsas göstərici kimi **ümumi daxili məhsul**un həcmi ötən illə müqayisədə 1,7 faiz artaraq 2 milyard 465 milyon manatdan çox olmuşdur. Onun hər bir nəfərə düşən həcmi isə 5 min 600 manata yaxın olmuşdur. Maddi istehsalın ümumi daxili məhsulda 62 faizlik paya malik olması isə iqtisadi tərəqqinin ən bariz nümunəsidir.

Davamlı və sabit inkişafın təmin olunmasında heç şübhəsiz ki, muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası da mühüm rol oynamışdır. Məqsədli investisiya siyasəti, sahibkarlıq subyektlərinin inkişafına hərtərəfli dövlət qayğısı yeni istehsal müəssisələrinin fəaliyyətə başlamasına, məşğulluq səviyyəsinin yüksəlməsinə, idxalı əvəz edən məhsul istehsalının həcminin artmasına, daxili bazarın daha çox yerli məhsullarla təchiz olunmasına imkan vermişdir. 2015-ci ildə 62 yeni istehsal və xidmət sahəsinin yaradılması əhali tələbatının daha dolğun ödənilməsinə səbəb olmaqla yanaşı, idxaldan asılılığın azaldılmasına da müsbət təsir göstərmişdir. Yeni istehsal sahələrinin sayının artması və əhatə dairəsinin genişlənməsi nəticəsində bu gün muxtar respublikada 361 növdə məhsul istehsalı həyata keçirilir. Artıq 107-si ərzaq, 236-sı qeyri-ərzaq olmaqla, 343 növdə məhsula olan tələbatı tamamilə yerli imkanlar hesabına təmin etmək mümkündür. Bütün bunlara isə, ilk növbədə, özəl sektora qayğı, yerli əmək və xammal resurslarından səmərəli istifadə nəticəsində nail olunmuşdur. Təkcə 2015-ci ilin ötən dövrü ərzində sahibkarlığın inkişafı məqsədi ilə muxtar respublikada fəaliyyət göstərən bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 36 milyon manatdan çox kredit verilmişdir. Görülmüş işlər isə, öz növbəsində, özəl sektorun ümumi daxili məhsulda 87 faizlik xüsusi çəkiyə malik olmasına səbəb olmuşdur.

Sahibkarlığın inkişafı eyni zamanda işsizlik probleminin ortadan qalxması deməkdir. 2013-cü il dekabrın 18-də qəbul olunmuş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" da yeni iş yerlərinin açılmasına öz müsbət təsirini göstərmişdir. 2015-ci ildə yeni yaradılan 2908 iş yerindən 2837-si və ya 98 faizi daimi iş yeri olmuşdur.

İqtisadiyyatda çoxşaxəliliyin təmin edilməsi prinsipinə uyğun olaraq muxtar respublikada yerli xammala əsaslanan, elm və əmək tutumlu, texnoloji nailiyyətləri özündə əks etdirən emal və istehsal müəssisələrinin istifadəyə verilməsi **sənaye** sektorunun üstün inkişafına səbəb olmuşdur. Görülən tədbirlərin nəticəsidir ki, sənayenin ümumi daxili məhsul istehsalında çəkisi artaraq hazırda 29 faizlik payla ilk yeri tutur. Ötən əsrin 90-cı illərinin əvvəllərində adi sənaye məhsuluna olan tələbatını ödəyə bilməyən muxtar respublikada bu gün müxtəlif növ və çeşiddə məhsul istehsal olunur. 2015-ci ildə sənaye məhsulunun həcmi ötən illə müqayisədə 2 faiz artaraq 917 milyon manata yaxın olmuş, istehsal olunan məhsulun isə 96 faizi özəl sektorun payına düşmüşdür.

İqtisadi inkişafda sənaye nə qədər mühüm əhəmiyyətə malik olsa da, ərzaq təhlükəsizliyinin təmin olunması və emal müəssisələrinin xammal təchizatının təşkili baxımından **kənd təsərrüfatı** hər zaman öz aktuallığını qoruyub saxlayır. Aqrar sektorun inkişafını və modernləşdirilməsini sürətləndirmək, kənd təsərrüfatı məhsulunun həcmi ilə yanaşı, onun ixrac imkanlarını da artırmaq məqsədilə 2015-ci il ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında "Kənd təsərrüfatı ili" elan olunmuşdur.

Kənd təsərrüfatında məhsuldarlığın intensiv amillər hesabına artırılmasında son illər qəbul

*Ardı 2-ci səhifədə*

olunmuş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası da müsbət təsir göstərmiş və aqrar sahənin davamlı inkişafı təmin olunmuşdur.

Məhsul istehsalçılarını stimullaşdırmaq məqsədilə aqrar sahəyə dövlət büdcəsindən subsidiyaların ayrılması kənd təsərrüfatının inkişafına xüsusi təkan vermiş, 2015-ci ilin məhsulu üçün 61 min 414 hektar sahədə əkin aparılmışdır.

Əkinçilikdə məhsul istehsalının həcminin artırılmasında müasir əkin üsullarından istifadə, texnika parkının yaxşılaşdırılması, eləcə də mineral gübrələrdən lazımi qaydada faydalanmaq mühüm əhəmiyyət kəsb edir. "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 180-i 2015-ci ildə olmaqla, son illər muxtar respublikaya 1685 ədəd müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası və texnoloji avadanlığının gətirilməsi istehsalçıların əməyinin yüngülləşdirilməsinə çox böyük təsir etmişdir. Məhsuldarlığı artırmaq məqsədilə torpaq mülkiyyətçiləri 6025 ton mineral gübrə ilə təmin olunmuşdur.

Bitkiçiliyin inkişafı istiqamətində görülən işlər sırasında suvarma sistemlərinin təkmilləşdirilməsi mühüm yer tutur. Son illər yeni nasos stansiyalarının istifadəyə verilməsi, su anbarlarında yenidənqurma işlərinin aparılması, kanalların çəkilməsi torpaq sahələrinin su təminatını xeyli yaxşılaşdırmış, əkin sahələri genişləndirilmişdir. 2015-ci ildə **meliorasiya və suvarma** sistemlərinin təkmilləşdirilməsi istiqamətində tədbirlərin davam etdirilməsi nəticəsində 6 min hektar torpaq sahəsi əkin dövriyyəsinə daxil edilmişdir.

Məhsuldar və keyfiyyətli toxum növləri istehsalının stimullaşdırılması məqsədilə toxumçuluq təsərrüfatlarının maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində işlər davam etdirilir. Hazırda Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunur. Muxtar respublikanın əsas toxumçuluq bazası olacaq bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının da tədarükü və satışı həyata keçiriləcəkdir.

Strateji əhəmiyyətinə görə **taxılçılıq** əkinçiliyin əsas sahəsi olaraq cari ildə də diqqət mərkəzində saxlanılmış, 36 min 237 hektar sahədən 106 min 282 ton məhsul tədarük olunmuşdur.

Ərzaq rasionunda xüsusi çəkisi ilə fərqlənən və əsas qida məhsullarından biri sayılan **kartof** istehsalında da müsbət dinamika saxlanılmışdır. 2015-ci ildə 2967 hektar əkin sahəsindən 45 min tondan çox məhsul əldə olunmuşdur ki, bu da ötən ilin göstəricisindən 9 faiz çoxdur.

Muxtar respublikanın torpaq-iqlim şəraiti burada ekoloji cəhətdən saf **meyvə-tərəvəz** məhsullarının yetişdirilməsi üçün əlverişli imkanlar yaradır. Bu sahənin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramında nəzərdə tutulan tədbirlər də meyvə və tərəvəz istehsalına müsbət təsir göstərmişdir. 2015-ci ildə ötən illə müqayisədə meyvə istehsalının həcmi 41 faiz, tərəvəz istehsalının həcmi isə 23 faiz artmışdır.

Əhali tələbatının keyfiyyətli meyvə-tərəvəz məhsulları ilə təmin olunmasında anbar təsərrüfatlarının, istixana komplekslərinin yaradılması da böyük əhəmiyyət daşıyır. 2015-ci ildə daha 7 istixana təsərrüfatının fəaliyyətə başlaması əhalinin ilin bütün fəsillərində təzə tərəvəz məhsulları ilə təchiz olunması imkanlarını artırmışdır. Mövsüm ərzində tələbatdan artıq toplanmış meyvə-tərəvəzin anbarlara tədarük olunmasını təmin etmək üçün isə cari ildə yeni soyuducu anbarların istismara verilməsi tədbirləri davam etdirilmiş, onların sayı 22-yə, tutumu isə 12 min 730 tona çatdırılmışdır.

Əkinçiliklə yanaşı, kənd təsərrüfatının digər mühüm və gəlirli sahəsi hesab olunan **heyvandarlıq** da diqqətdən kənar qalmamışdır. İri heyvandarlıq təsərrüfatlarının yaradılması, mövcud mal-qaranın cins tərkibinin yaxşılaşdırılması tədbirləri istehsal olunan ət və süd məhsullarının həcminin artması ilə nəticələnmişdir. Cins tərkibinin yaxşılaşdırılması tədbirlərinin davamı olaraq 2015-ci ildə muxtar respublikaya 249, bütövlükdə isə 1937 baş damazlıq cins mal-qara gətirilərək lizinq yolu ilə satışı həyata keçirilmişdir. "Heyvanların cins tərkibinin yaxşılaşdırılmasına dövlət dəstəyi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 19 avqust tarixli Sərəncamına əsasən süni mayalanma yolu ilə alınmış hər baş buzova görə 100 manat həcmində subsidiyanın müəyyən olunması bu sahəyə olan marağı artırmışdır.

Muxtar respublikada fəaliyyət göstərən 64 quşçuluq təsərrüfatı quş əti və yumurtaya olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsini təmin etmişdir.

Daxili bazarda tələbatın yerli imkanlar hesabına təmin edilməsi məqsədilə balıqçılıq təsərrüfatı yaradılmış və təsərrüfatda muxtar respublikanın su hövzələri üçün müxtəlif balıq sortlarının yetişdirilməsinə başlanılmışdır.

Kənd təsərrüfatının ənənəvi sahələrindən sayılan arıçılığın inkişafı da diqqət mərkəzində saxlanılmışdır. 2015-ci ildə arı ailələrinin sayı 70 mini ötmüş, arıçılıq təsərrüfatlarında 1396 ton bal istehsal olunmuşdur.

Aqrar sahədə məhsul istehsalının həcminin artırılmasında kənd təsərrüfatı ilə məşğul olan təsərrüfat subyektlərinə muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən verilən kreditlərin də təsiri böyükdür. 2015-ci ilin ötən dövrü ərzində kənd təsərrüfatı istehsalçılarına, ümumilikdə, 19 milyon manatdan çox kredit verilmişdir.

Həyata keçirilən aqrar siyasətin səmərəli nəticəsi olaraq muxtar respublikada kənd təsərrüfatı məhsullarının bolluğuna nail olunmuş, tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir. Nəticədə, aqrar sahədə fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 403 milyon manata yaxın məhsul istehsal olunmuşdur ki, bu da ötən illə müqayisədə 12 faiz çoxdur.

Aqrar sektor yalnız ərzaq təhlükəsizliyinin təmin edilməsi baxımından deyil, həm də ekoloji tarazlığın qorunması istiqamətində də mühüm əhəmiyyət kəsb edir. Muxtar respublikada **ekologiya**nın mühafizəsi sahəsində görülən tədbirlərin davamı olaraq 2015-ci ilin yaz və payız aylarında keçirilən yaşıllaşdırma tədbirləri çərçivəsində 541 hektar sahədə meşəsalma və meşəbərpa işləri görülmüş, 446 mindən çox ağac və gül kolu əkilmişdir. "Kənd təsərrüfatı ili"ndə payız mövsümü keçirilən iməciliklər vaxtı ilk dəfə olaraq muxtar respublikada 50 hektar püstə bağı salınmışdır.

Dinamik inkişafın təmin edilməsində **investisiya qoyuluşları**nın da əhəmiyyəti çox böyükdür. 2015-ci ildə muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala investisiya qoyuluşlarının həcmi 951 milyon manat təşkil etmişdir.

Muxtar respublikada yaşayış məntəqələrinin abadlaşdırılması, əhalinin mənzil şəraitinin yaxşılaşdırılması, kənd yerlərində səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi üzrə tədbirlər 2015-ci ildə davam etdirilmiş, 16 kənd və 16 xidmət mərkəzi istifadəyə verilmiş, Naxçıvan şəhərində üç yaşayış binasının tikintisi, beş yaşayış binasının yenidən qurulması başa çatdırılmışdır. İctimai yaşayış binaları ilə yanaşı, fərdi mənzil tikintisinin də həcmində artım qeydə alınmış, əhalinin şəxsi vəsaiti hesabına tikilən mənzillərin sahəsi 371 min kvadratmetr təşkil etmişdir.

Hər bir bölgənin iqtisadi inkişafı rahat gediş-gəlişi, abad yolu ilə müəyyən olunur. Muxtar respublikada **yol-nəqliyyat** infrastrukturunun müasir tələblər səviyyəsində yenidən qurulması işlərinə müvafiq olaraq 2015-ci ildə 61 kilometr uzunluğunda asfalt yol salınmış, Naxçıvan şəhərində yerüstü piyada keçidi istifadəyə verilmişdir. Göstərilən nəqliyyat xidmətlərinin səviyyəsini yüksəltmək məqsədilə şəhərdaxili marşrutda istifadə üçün 7, beynəlxalq sərnişin daşınmasında istifadə üçün isə 2 avtobus alınaraq xəttə buraxılmışdır. Naxçıvan Beynəlxalq Hava Limanında yenidənqurma işlərindən sonra "Şərq Terminalı", Şərur və Ordubad şəhərlərində aviakassa binaları sərnişinlərin istifadəsinə verilmişdir.

Müasir dünyada informasiya texnologiyalarının nailiyyətlərindən bəhrələnmədən hər hansı bir sahədə tərəqqi əldə etmək mümkünsüzdür. Muxtar respublikada da **informasiya və yeni texnologiyaların** inkişafı istiqamətində ardıcıl tədbirlər görülür. 2015-ci ildə belə tədbirlərin davamı olaraq Babək rayonunda yeni nəsil poçt və rabitə avadanlıqlarının quraşdırıldığı rabitə evi istifadəyə verilmişdir.

**Enerji təhlükəsizliyi**nin təmin olunması bu gün dünyanın istənilən ölkəsi qarşısında duran ən vacib məsələlərdən biridir. Xüsusilə blokada şəraitində yaşayan muxtar respublikamızda bu amil həyati əhəmiyyət kəsb edir. İstifadəyə verilən elektrik stansiyaları hesabına muxtar respublikanın enerji təhlükəsizliyi tam təmin edilmişdir. 2015-ci ildə 20 meqavat gücə malik Günəş Elektrik Stansiyasının istismara verilməsi isə gələcəkdə Naxçıvan Muxtar Respublikasının enerji təminatının tamamilə alternativ və bərpa olunan enerji mənbələri hesabına ödənilməsinə imkan verəcəkdir.

İl ərzində istehlakçıların fasiləsiz olaraq təbii qazla təchiz edilməsi üçün mövcud infrastrukturun yenilənməsi diqqət mərkəzində saxlanılmış, Naxçıvan şəhərində smartkarttipli elektrik və qaz sayğaclarının quraşdırılmasına başlanılmışdır. İstehlak olunan təbii qaz və elektrik enerjisinin dəyərinin tam həcmdə ödənilməsi təmin olunmuşdur.

Muxtar respublika iqtisadiyyatında müşahidə edilən dinamik artım meyilləri **xarici ticarət** əlaqələrinə də müsbət təsir göstərmişdir. 2015-ci ilin ötən dövründə xarici ticarət dövriyyəsinin həcmi 493 milyon 667 min ABŞ dolları həcmində olmuşdur. Ticarət əməliyyatlarının 412 milyon 920 mini ixracın, 80 milyon 747 mini idxalın payına düşür. İxracın idxalı üstələmə tendensiyası bu il də qorunub saxlanmış, müsbət saldo 332 milyon 173 min ABŞ dolları təşkil etmişdir.

Ölkəmizdə **təhsil**in inkişafı, müasir tələblər səviyyəsində qurulması, maddi-texniki bazasının gücləndirilməsi, yüksəkixtisaslı mütəxəssislərin hazırlanması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Çünki təhsilə göstərilən qayğı ölkənin gələcəyinə göstərilən qayğıdır. İstifadəyə verilən yeni məktəb binalarının sayı ildən-ilə artaraq bütün yaşayış məntəqələrini əhatə edir. 2015-ci il də muxtar respublikamızda bu cəhətdən istisna təşkil etməmiş, Ordubad şəhərində 810 şagird yerlik 3 saylı, Babək rayonunun Nehrəm kəndində 990 şagird yerlik 2 saylı, Babək qəsəbəsində 360, Şərur rayonunun Kürçülü kəndində 234, Cəlilkənddə 270, Kürkənddə 198, Axaməd kəndində 192, Yuxarı Yaycı kəndində 144, Babək rayonunun Xal-xal kəndində 192, Ordubad rayonunun Tivi kəndində 216, Gilançay kəndində 96, Culfa rayonunun Qızılca kəndində 120, Gal kəndində 96 şagird yerlik məktəb binaları tikilmişdir.

İstifadəyə verilən hər bir təhsil müəssisəsində müəllim və şagirdlər üçün nümunəvi şərait yaradılmış, məktəblər ən müasir informasiya və kommunikasiya avadanlıqları ilə təchiz olunmuşdur. Hazırda ümumtəhsil müəssisələrində 600-dən çox elektron lövhə quraşdırılmış, məktəblərə 3800-dən çox kompüter verilmiş və onların 86 faizi internetə qoşulmuşdur.

Muxtar respublikada təhsilin səviyyəsinin daha da yüksəldilməsi, texniki fənlər üzrə şagirdlərin istedad və bacarıqlarının aşkara çıxarılması məqsədilə Şərur Şəhər Fizika-Riyaziyyat Təmayüllü Lisey yaradılmış, müsabiqə yolu ilə müəllim və şagird qəbulu həyata keçirilmişdir.

Təhsilin dövlət səviyyəsində himayə olunması həm kəmiyyət, həm də keyfiyyət baxımından irəliləyişin əldə edilməsinə səbəb olmuşdur. 2015-ci ildə qəbul imtahanlarında iştirak edən məzunlardan 1582 nəfəri ali məktəblərin, 577 nəfəri isə orta ixtisas məktəblərinin tələbəsi adını qazanmışdır. Ali məktəblərə qəbul olan məzunların 313 nəfəri 500-700 arası bal toplamışdır. Yüksək nəticə ilə tələbə adını qazananlardan 8-i ölkə başçısının sərəncamı ilə Prezident təqaüdünə layiq görülmüşdür.

Gənc nəslin təlim-tərbiyəsinə göstərilən qayğı təkcə orta təhsil ilə məhdudlaşmamış, məktəbəqədər və məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyəti üçün də nümunəvi şəraitin yaradılmasına diqqət artırılmışdır. Belə ki, 2015-ci ildə Şahbuz şəhərində 242 yerlik uşaq bağçası, Naxçıvan şəhərində və Sədərək rayonunda uşaq musiqi məktəbləri üçün müasir binalar tikilmişdir.

Təhsil üzrə infrastruktur quruculuğu tədbirləri təhsilin bütün pillələrini əhatə etmiş, ali və orta ixtisas təhsilinin müasir tələblər səviyyəsində təşkili təmin edilmişdir. 2015-ci ildə Naxçıvan Dövlət Universitetində elektron təhsil şəbəkəsi və rəqəmsal multimedia infrastrukturunun istismara verilməsi yüksəkixtisaslı kadrların hazırlanmasına öz töhfəsini verəcəkdir. "Naxçıvan" Universitetində müasir tədris şəraitinin yaradılması və tədrisin daha keyfiyyətlə aparılması məqsədilə yeni universitet şəhərciyi istifadəyə verilmişdir.

Musiqi kadrlarının hazırlanmasında mühüm rol oynayan Naxçıvan Musiqi Kollecinin 2015-ci ildə 40 illik yubileyi təntənəli şəkildə qeyd olunmuş, kollecin binasında yenidənqurma işləri aparılaraq maddi-texniki bazası gücləndirilmişdir.

Elmin inkişafına göstərilən qayğının nəticəsidir ki, Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin iclaslarından biri məhz muxtar respublikamızda keçirilmiş, tədbir çərçivəsində Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsində Distant Təhsil Mərkəzinin açılışı olmuşdur. 2015-ci ildə muxtar respublikada elm sahəsində fəaliyyət göstərənlərdən 2 nəfər elmlər doktoru, 6 nəfər fəlsəfə doktoru alimlik dərəcəsini müdafiə etmişdir.

Tibbi xidmətin müasir standartlar səviyyəsinə yüksəldilməsi, vətəndaşların sağlamlığının etibarlı təminatı məqsədilə yeni **səhiyyə** müəssisələrinin istifadəyə verilməsi muxtar respublikada həyata keçirilən sosial siyasətin tərkib hissəsinə çevrilmişdir. 2015-ci ildə Naxçıvan Muxtar Respublika Xəstəxanası, Yoluxucu Xəstəliklər Mərkəzi, Şərur rayonunda Cəlilkənddə, Ordubad rayonunun Tivi kəndində həkim ambulatoriyaları, Babək qəsəbəsində, Şərur rayonunun Kürkənd, Kürçülü, Yuxarı Yaycı, Axaməd, Babək rayonunun Xal-xal, Ordubad rayonunun Gilançay, Culfa rayonunun Gal və Qızılca kəndlərində feldşer-mama məntəqələri istifadəyə verilmişdir.

Əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində tədbirlər davam etdirilmiş, sosial qayğıya ehtiyacı olan 16 nəfərə minik avtomobilləri verilmiş, 10 mənzil tikilmişdir.

Naxçıvan diyarı özünün zəngin mədəni irsi, ədəbiyyatı və incəsənət nümunələri ilə xalqımızın tarixinə əvəzsiz incilər bəxş etmiş, milli dəyərlərimiz hifz olunaraq nəsildən-nəslə ötürülmüşdür. Hər bir xalqı yaşadan onun milli dəyərlərinin – dilinin, adət-ənənələrinin, folklorunun, mədəniyyətinin mövcudluğudur. 2015-ci ildə Naxçıvan şəhərində xalq yaradıcılığı sərgisinin keçirilməsi milli dəyərlərimizin yaşadılması və təbliği baxımından mühüm əhəmiyyət kəsb edir. Milli dəyərlərin öyrənilməsində əvəzsiz mənbə olan tarixi abidələrin bərpası diqqət mərkəzində saxlanılmış, Şərur rayonunda Cəlilkənddəki Buzxana bərpa olunmuş, Naxçıvan şəhərində Möminə xatın türbəsində, Culfa rayonunda Əlincəqala tarixi abidəsində və Gülüstan türbəsində təmir-bərpa və yenidənqurma işləri aparılmışdır. Bundan başqa, Azərbaycan xalqının tarixi keçmişini şifahi xalq ədəbiyyatı əsasında əks etdirən ölməz yazılı abidə "Kitabi-Dədə Qorqud" dastanının alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyi muxtar respublikamızda da geniş şəkildə qeyd edilmişdir.

Heç şübhəsiz ki, bu gün sahib olduğumuz ən ali dəyərimiz milli dövlətçiliyimizdir. Dövlətin əsas rəmzlərindən sayılan bayraq isə xalqın varlığının, mövcudluğunun sübutu, dövlət qurmaq və ona sahib çıxmaq iradəsinin əsasıdır. Bayrağa sevgi vətənə sevgi, dövlətə sevgidir. 2015-ci ildə Rusiya arxivlərində aparılan elmi araşdırmalar nəticəsində Naxçıvan xanlığına məxsus dövlət və döyüş bayraqlarının aşkara çıxarılaraq Dövlət Bayrağı Muzeyinə təqdim olunması, Şahbuz şəhərində Bayraq Meydanının istifadəyə verilməsi dövlətçilik ideyalarının təbliğində mühüm əhəmiyyətə malikdir.

Tarixi keçmişimizin öyrənilməsi və gələcək nəsillərə ötürülməsində muzeylər əvəzsiz rol oynayır. Bu baxımdan onların qorunması, maddi-texniki bazasının möhkəmləndirilməsi və iş şəraitinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılır. Cari ildə Şərur rayonunda Cəlilkənddə Cəlil Məmmədquluzadənin Xatirə Muzeyinin, Ordubad şəhərində Məhəmməd Tağı Sidqinin ev-muzeyinin istifadəyə verilməsi muzeylər şəbəkəsinin genişləndirilməsində, muxtar respublika tarixinin və ədəbi mühitinin tədqiqində yeni mərhələ təşkil edir.

Başa çatmaqda olan il muxtar respublikamızda bir çox şəxsiyyətlərin yubileylərinin qeyd olunması ilə də yadda qalmışdır. Belə ki, cari ildə Naxçıvan torpağının yetirmələri olan görkəmli pedaqoq və elm xadimi Əziz Şərifin, böyük sərkərdə Cəmşid Naxçıvanskinin 120, həmçinin dövlət xadimi və ədib Nəriman Nərimanovun 145 illik yubileyləri təntənəli şəkildə qeyd edilmişdir.

2015-ci ildə muxtar respublikanın **kütləvi informasiya vasitələrinin** maddi-texniki bazasının gücləndirilməsi, onların fəaliyyətinin səmərəli təşkili istiqamətində də müvafiq işlər görülmüş, milli mətbuatın yaradılmasının 140 illik yubileyi münasibətilə tədbirlər keçirilmişdir.

Muxtar respublikada hərbi təyinatlı tikinti-quruculuq işlərinin aparılması, maddi-texniki bazanın gücləndirilməsi, zabit ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, şəxsi heyətin döyüş ruhunun artırılması sahəsində də işlər davam etdirilmişdir. 2015-ci ildə Naxçıvan şəhərindəki hərbi hissədə yeni qərargah binası və əsgər yataqxanası, Soyuq döyüş bölgəsində əsgəri yaşayış kompleksi istifadəyə verilmiş, Daxili qoşunlarda xidmət keçən zabit-gizir ailələrinə yeni mənzillər verilmişdir.

Orduya göstərilən qayğının nəticəsi olaraq Heydər Əliyev adına Hərbi Liseyin məzunlarından 203-ü ölkəmizin müxtəlif ali hərbi məktəblərinə, ümumtəhsil məktəblərini bitirmiş məzunlardan isə 36-sı ali hərbi və xüsusi təyinatlı məktəblərə qəbul olmuşdur.

**Hüquq-mühafizə** orqanlarının iş şəraitinin yaxşılaşdırılması məqsədilə Dövlət Miqrasiya Xidmətinin inzibati binası, Dövlət Gömrük Komitəsinin "Naxçıvanterminalkompleks" Birliyi üçün inzibati bina və anbar kompleksinin, Daxili İşlər Nazirliyi Dövlət Yol Polisinin Culfa və Ordubad rayonlarında Avtomobillərin Müayinə mərkəzləri üçün binalar tikilərək istifadəyə verilmişdir.

İqtisadi sahədə dinamik inkişafın, məşğulluq səviyyəsinin yüksəldilməsinin, əhali arasında hüquq maarifinin, profilaktik tədbirlərin düzgün təşkilinin nəticəsi olaraq muxtar respublikada cinayətkarlığın aşağı səviyyədə qalmasına nail olunmuşdur.

2015-ci ildə yeni iş yerlərinin açılması, gəlirlərin səviyyəsinin artması əhalinin rifah

*Ardı 3-cü səhifədə*

halının yaxşılaşması ilə yanaşı, demoqrafik vəziyyətə də müsbət təsir göstərmiş, əhalinin sayı artaraq 443 min nəfəri ötmüşdür.

"Kənd təsərrüfatı ili"nin sosial-iqtisadi nəticələri göstərir ki, bu ildə təkcə kənd təsərrüfatında deyil, iqtisadiyyatın bütün sahələrində ciddi nailiyyətlər qazanılmışdır. Bu tərəqqiyə, inkişafa töhfəsini verənlərin əməyi isə yüksək qiymətləndirilmiş, Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə 111 nəfər Azərbaycan Respublikasının müxtəlif orden, medal və fəxri adları ilə təltif edilmiş, 6 nəfərə ali hərbi rütbə, 1 nəfərə Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu verilmiş, 1 nəfər Prezident təqaüdünə, 8 nəfər isə Prezident mükafatına layiq görülmüşdür. Həmçinin 31 nəfərə Naxçıvan Muxtar Respublikasının fəxri adları verilmiş, 2 nəfər "Naxçıvan Muxtar Respublikasına xidmətlərinə görə", 56 nəfər "Rəşadətli əməyə görə" nişanları ilə təltif olunmuş, 2 nəfər Naxçıvan Muxtar Respublika mükafatına, 2 nəfər isə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Bu nailiyyətlərin qazanılmasında, Naxçıvan Muxtar Respublikasının inkişafında əməyi olanların hamısına təşəkkürümüzü bildiririk.

Aparılan təhlillər bir daha təsdiq edir ki, 2015-ci il muxtar respublikanın həyatında dinamik inkişafın növbəti mərhələsi olmuşdur. Lakin bütün bunlarla kifayətlənmək olmaz. Sosial-iqtisadi tərəqqidə davamlılığı təmin etmək, əhalinin daha yaxşı yaşamasına nail olmaq üçün dövlət orqanları qarşısında bir sıra mühüm vəzifələr durur.

**Maliyyə Nazirliyi** və onun yerli orqanları növbəti ilin dövlət büdcəsində nəzərdə tutulan vəsaitdən qənaətlə və səmərəli istifadə olunmasına nəzarəti gücləndirməlidir.

**Vergilər Nazirliyi və Dövlət Gömrük Komitəsi** büdcə daxilolmaları üzrə proqnozların icrasını təmin etməli, vergidən yayınma hallarının qarşısını almaq məqsədilə **Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Dövlət Sosial Müdafiə Fondu** ilə birlikdə işəgötürənlər tərəfindən əmək qanunvericiliyinin şərtlərinə əməl olunmasına nəzarət etməlidirlər.

**Mərkəzi Bankın Naxçıvan Muxtar Respublika İdarəsi və Vergilər Nazirliyi** dövriyyədə olan nağd pul kütləsinin azalması üçün hesablaşmalar zamanı nağdsız əməliyyatlara üstünlük verilməsini, hüquqi və fiziki şəxslərə məxsus bank hesablarının işlək olmasını diqqət mərkəzində saxlamalı, ticarət və xidmət obyektlərindəki POS-terminalların dövriyyə həcminin artırılması üçün maarifləndirici tədbirlərin səmərəliliyini yüksəltməlidirlər.

Dinamik inkişafın davam etdirilməsi üçün **İqtisadiyyat və Sənaye Nazirliyi** tərəfindən daxili bazarın qorunmasına istiqamətlənmiş, idxalı əvəz edən məhsul istehsal etmək qabiliyyətinə malik istehsal müəssisələrinin yaradılmasına diqqət artırılmalıdır. Kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyəti üçün hərtərəfli şərait yaradılmalıdır. Özəl sektorun inkişafı məqsədilə Sahibkarlığa Kömək Fondunun xətti ilə dövlət maliyyə dəstəyinin göstərilməsi davam etdirilməli, bu zaman ayrılan vəsaitin səmərəli istifadəsi və qaytarılma imkanları ciddi təhlil olunaraq düzgün qiymətləndirilməlidir.

**Ədliyyə Nazirliyi** sahibkarlıq sahəsində aparılan yoxlamaların məlumat reyestrinin təkmilləşdirilməsini diqqətdə saxlamalıdır.

**Dövlət Gömrük Komitəsi** daxili bazarın qorunması istiqamətində tədbirlərini davam etdirməli, xarici ticarət iştirakçıları olan sahibkarlıq subyektləri ilə əməkdaşlığı daha da artırmalı, onları məlumatlandırmalıdır.

**Kənd Təsərrüfatı Nazirliyi və yerli icra hakimiyyəti orqanları** bitkiçilik məhsullarının yerli şəraitə uyğun əkilməsi, növbəli əkinin aparılması və torpaqların münbitliyinin artırılması ilə bağlı yerlərdə aparılan maarifləndirici tədbirlərin kəmiyyətindən çox keyfiyyətinə diqqəti artırmalıdırlar. Yeni texnologiyalardan, keyfiyyətli toxum sortlarından və mineral gübrələrdən səmərəli istifadə təmin edilməlidir. Əkin sahələrində su itkisinin və şoranlaşmanın qarşısını almaq məqsədilə şırım üsulu ilə əkinə üstünlük verilməsi nəzarətdə saxlanılmalıdır.

**Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi yerli icra hakimiyyəti orqanları** ilə birlikdə əkinəyararlı torpaq sahələrindən digər məqsədlər üçün istifadə hallarının qarşısını almalıdırlar.

Əkinçiliyin inkişafında su ehtiyatlarından səmərəli istifadə vacib məsələdir. **Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi** mütərəqqi suvarma metodlarının tətbiqini və rentabelli suvarma şəbəkələrinin qurulmasını, sudan istifadədə qənaətedici texnologiyaların tətbiqini davam etdirməli, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılması üçün müvafiq işlər görməlidir.

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi** kənd təsərrüfatı üçün yararsız torpaq sahələrində meşə və qoruyucu meşə zolaqlarının salınmasını davam etdirməli, mövcud fauna və floranın qorunması ilə bağlı tədbirləri daha da gücləndirməlidir.

Ərzaq təhlükəsizliyinin təmin olunmasında əkinçiliklə yanaşı, heyvandarlıq da mühüm əhəmiyyətə malikdir. **Dövlət Baytarlıq Xidməti** və onun yerli orqanları mal-qaranın cins tərkibinin yaxşılaşdırılması məqsədilə aparılan süni mayalandırma tədbirlərini davam etdirməlidirlər.

**Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi** istehlak bazarında məhsulların keyfiyyətinə, müvafiq standartlara uyğunluğuna nəzarəti davam etdirməlidir.

Tikinti işlərində vaxtından əvvəl təmir işlərinə ehtiyac yaranmaması üçün **Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** tərəfindən keyfiyyət amilinə nəzarət gücləndirilməli, tikinti layihələri ciddi təhlil olunmalı, ayrılan vəsaitdən səmərəli istifadə edilməli, izafi xərclərə yol verilməməlidir.

Muxtar respublikada həyata keçirilən tədbirlər istehlakçıların fasiləsiz olaraq təbii qaz və elektrik enerjisi ilə təminatına imkan yaradıb. **Dövlət Energetika Agentliyi və "Naxçıvanqaz" İstehsalat Birliyi yerli icra hakimiyyəti orqanları** ilə birlikdə qaz və elektrik enerjisi itkilərinə yol verməməli, elektrik və qaz xətlərinin dayanıqlılığının təmin olunması istiqamətində tədbirlərə diqqəti artırmalıdırlar. Naxçıvan şəhərində müasirtipli qaz və elektrik sayğaclarının quraşdırılması davam etdirilməlidir.

**Yerli icra hakimiyyəti orqanları** tərəfindən vətəndaşların müraciətlərinin yerində həll olunması, abadlıq-təmizlik işləri, istifadəyə verilmiş inzibati və sosial obyektlərin qorunması, yerli idarə və müəssisələrdə nizam-intizam diqqət mərkəzində saxlanılmalı, qanunsuz tikililərin aparılmasına yol verilməməlidir.

**Təhsil Nazirliyi** təhsil müəssisələri ilə muxtar respublikanın muzeyləri arasında interaktiv əlaqədən istifadəni davam etdirməli, müəllimlərin dərsə hazırlıq səviyyəsini və şagirdlərin dərsə davamiyyətini diqqətdə saxlamalı, təhsil müəssisələrinin maddi-texniki bazasının qorunmasına və onlardan səmərəli istifadəyə nəzarəti gücləndirməlidir.

**Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi** Naxçıvanın tarixi, etnoqrafiyası, folkloru, təbii sərvətlərinin öyrənilməsi istiqamətində elmi tədqiqatları davam etdirməli, ümumiləşdirici əsərlərin yazılmasını təmin etməlidir.

**Ali təhsil müəssisələri** ixtisaslı kadr hazırlığına ciddi yanaşmalı, nəzəri biliklərin öyrədilməsi ilə yanaşı, bu biliklərin praktiki cəhətdən mənimsənilməsi üçün uyğun ixtisaslar üzrə hamiliyə götürülən təşkilatlarla birlikdə təcrübi məşğələlərin keçirilməsinə diqqəti artırmalıdırlar.

**Səhiyyə Nazirliyi** səhiyyə müəssisələrində intizamın yüksəldilməsini, tibb müəssisələrində quraşdırılan müasir avadanlıqlardan səmərəli istifadəni və onların qorunmasını təmin etməli, tibbi heyətin ixtisasartırma kurslarına göndərilməsini davam etdirməli, şəhər və rayonlarda, eləcə də kəndlərdə səhiyyə xidmətinin səviyyəsinin artırılması istiqamətində zəruri tədbirlər görməlidir.

**Mədəniyyət və Turizm Nazirliyi** uşaq musiqi məktəblərinin fəaliyyətini gücləndirməli, ixtisaslı kadrların seçilməsi və düzgün yerləşdirilməsini təmin etməli, folklorumuzun, bütövlükdə milli dəyərlərimizin təbliği, turizm sektorunun inkişafı istiqamətində səylərini artırmalıdır.

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** sağlamlıq imkanları məhdud şəxslərin sosial-tibbi reabilitasiyası, onların cəmiyyətə inteqrasiyası istiqamətində tədbirləri gücləndirməli, muxtar respublikanın tələbatına uyğun yeni peşə kurslarının açılmasını təmin etməlidir.

**Hüquq-mühafizə orqanları** maarifləndirmə, profilaktika tədbirlərini davam etdirməli, nizam-intizamı daha da möhkəmləndirməli, ictimai asayiş və sabitlik qorunmalıdır.

Ordu, birləşmə və hərbi hissə komandirləri döyüş hazırlığına diqqət etməli, ehtiyatların qorunub saxlanması, əsgərlərin mövsümə uyğun geyim və yeməklərlə təmin olunması üçün tədbirlər görməlidirlər.

**Fövqəladə Hallar Nazirliyi** tikintiyə dövlət nəzarətinin qanunvericiliyə uyğun həyata keçirilməsinə, yanğın və digər mövsümi problemlərin qarşısının alınmasına yönəlmiş tədbirləri artırmalıdır.

**Ədliyyə Nazirliyi** məhkəmə qərarlarının vaxtında icra olunmasına nəzarəti artırmalı, bələdiyyələrin torpaq qanunvericiliyinə əməl etməsi üçün zəruri metodiki köməklik və maarifləndirmə tədbirləri həyata keçirməlidir.

Muxtar respublikanın **kütləvi informasiya orqanları** yaradılan şəraitdən düzgün istifadə etməklə öz fəaliyyətlərini günün tələbləri səviyyəsində qurmalı, qəzet və televiziya əməkdaşları yaradıcılıq axtarışlarını artırmalıdırlar.

Hörmətli deputatlar və sessiya iştirakçıları!

Muxtar respublikanın əldə etdiyi bütün nailiyyətlər ulu öndər Heydər Əliyevin ideyalarına dərin sədaqətin bəhrələridir. Biz ümummilli liderimizin yolu ilə gedərək doğma diyarımızı onun görmək istədiyi kimi qurmağa və inkişaf etdirməyə borcluyuq. Bunu isə bütün sahələrdə ən yüksək nəticələrə çatmaqla təmin etmək mümkündür.

Bu yolda uğurlar arzulayıram.

Sağ olun!

# Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsi haqqında Naxçıvan Muxtar Respublikasının QANUNU

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 25-ci maddəsinin I hissəsinin 2-ci bəndini rəhbər tutaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisi **qərara alır:**

**Maddə 1.** Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin gəlirləri 69 000 000,0 manat, xərcləri 351 350 000,0 manat, gəlir və xərcləri tənzimləmək üçün ayrılan dotasiya 282 350 000,0 manat (o cümlədən, mərkəzləşdirilmiş gəlirləri 47 270 000,0 manat, yerli gəlirləri 21 730 000,0 manat və mərkəzləşdirilmiş xərcləri 254 281 000,0 manat, yerli xərcləri 97 069 000,0 manat) məbləğində təsdiq edilsin.

**Maddə 2.** Naxçıvan Muxtar Respublikasının 2016-cı il dövlət büdcəsinin gəlirləri mədaxil mənbələri üzrə aşağıdakı məbləğlərdə nəzərdə tutulsun:

| Sıra №-si | Gəlirlərin mənbələri | Məbləğ (manatla) |
|---|---|---|
| 2.1. | Fiziki şəxslərin gəlir vergisi | 18 820 000,0 |
| 2.2. | Hüquqi şəxslərin mənfəət (gəlir) vergisi | 1 000 000,0 |
| 2.3. | Hüquqi şəxslərin torpaq vergisi | 150 000,0 |
| 2.4. | Hüquqi şəxslərin əmlak vergisi | 350 000,0 |
| 2.5. | Əlavə dəyər vergisi | 38 260 000,0 |
| 2.5.1. | Naxçıvan Muxtar Respublikasının ərazisinə malların idxalına görə əlavə dəyər vergisi | 3 260 000,0 |
| 2.6. | Sadələşdirilmiş vergi | 1 500 000,0 |
| 2.7. | Aksizlər | 1 770 000,0 |
| 2.7.1. | Naxçıvan Muxtar Respublikasının ərazisinə malların idxalına görə aksizlər | 1 650 000,0 |
| 2.8. | Yol vergisi | 220 000,0 |
| 2.8.1. | Xarici dövlətlərin avtonəqliyyat vasitələri sahibləri tərəfindən ödənilən yol vergisi | 220 000,0 |
